

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 212 (21.113)

6 noyabr 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqtonu qəbul edib.

Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqton Bakıda böyük inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla vurğuladı.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə yüksək səviyyədə olduğu bildirildi, iqtisadi əməkdaşlıq sahəsində energetikanın prioritet təşkil etdiyi vurğulanaraq bu istiqamətdə Böyük Britaniyanın bp şirkətinin Azərbaycanın əsas tərəfdaşı olduğu qeyd edildi, mühüm infrastruktur layihələrinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edildi.

## “Muxtariyyət ili” ilə əlaqədar açıq dərslər davam etdirilir

*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində Naxçıvan Dövlət Univesitetinin Tarix-filologiya fakültəsinin II kurs tələbələrinin iştirakı ilə açıq dərs keçilib.*



Açıq dərsdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev “Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrləri abidələri” mövzusunda mühazirə oxuyub. Bildirib ki, Son Tunc dövrü abidələri arxeoloji ədəbiyyatda Son Tunc və Erkən Dəmir dövrlərinin nümunələri kimi xarakterizə edilib. Tunc dövründən Dəmir dövrünə keçid olan bu mərhələ, başlıca olaraq, eramızdan əvvəl II minilliyin ikinci yarısını əhatə edir. Arxeoloji abidələrin tədqiqi göstərir ki, e.ə. II minilliyin ikinci yarısından başlayaraq Azərbaycan ərazisində yaşayan tayfaların sosial-iqtisadi və mədəni həyatında xeyli irəliləyiş olub. Bunu muxtar respublikamızda Araz vadisindəki I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun və digər yaşayış yerlərindən əldə olunmuş arxeoloji abidələr də sübut edir. Məlum olduğu kimi, bu yaşayış yerlərində Tunc dövrünün əvvəlki mərhələlərində də əhali məskunlaşıb. Son Tunc dövründə bu abidələrdə Orta Tunc dövrü üçün xarakterik olan boyalı qabların istehsalı davam edib.

Qeyd olunub ki, I Kültəpə yaşayış yerinin bu dövrə aid mədəni təbəqəsi abidənin üzərindən 1,5-2,5 metr dərinliyədək davam edir. Bu təbəqə digər təbəqələrlə müqayisədə olduqca kiçik bir sahədə qalıb. I Kültəpənin bu dövrə aid təbəqəsində tikinti qalıqları qeydə alınmayıb, yalnız uçub tökülmüş kərpic və çay daşlarına rast gəlinib. Burada ocaqların ətrafına yığılmış kül təbəqələri, gil qab parçaları və osteoloji qalıqlar qeydə alınıb. Bu təbəqədən Naxçıvan boyalı qablarının dördüncü mərhələsi üçün xarakterik olan gil məmulatı, habelə Xocalı-Gədəbəy mədəniyyətinin xüsusiyyətlərini əks etdirən gil qablar tapılıb. II Kültəpə yaşayış yerində isə Son Tunc və Erkən Dəmir dövrlərinə aid təbəqə ən üstdə yerləşdiyindən yaxşı qalmayıb. Burada daş və çiy kərpicdən tikilmiş, lakin uçub dağılmış divar qalıqları, ocaq yerləri, boyalı və boyasız gil qab parçaları və osteoloji qalıqlar aşkar olunub. Boz rəngli gil qablar arasında Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan göbələkşəkilli çıxıntısı olan qablara tez-tez rastlanır. Şahtaxtı yaşayış yerində isə Son Tunc və Erkən Dəmir dövrlərinə aid mədəni təbəqə daha yaxşı qalıb. Şahtaxtının bu dövrə aid mədəni təbəqəsi boz rəngli keramikanın üstünlük təşkil etməsi ilə xarakterizə olunur.

Mühazirəçinin sözlərinə görə, ümumiyyətlə, muxtar respublika ərazisindəki müxtəlif qədim yaşayış məntəqələrində Son Tunc və Erkən Dəmir dövrləri abidələrinə çox rast gəlinir ki, bu da, əsasən, nekropollarda, müxtəlif tikililərdə, eyni zamanda qalatipli abidələrdə özünü göstərir. Vurğulanıb ki, əsasən, e.ə. II minilliyin ikinci yarısı ilə tarixləndirilən müdafiə istehkamlarının bir qrupundan yaşayış yeri kimi istifadə olunub. Naxçıvan abidələrində Orta Tunc dövründə inşa edilmiş müdafiə divarları, ehtimal ki, Son Tunc dövründə də bərpa edilərək istifadə edilib. Bu dövrdə ətrafı möhkəmləndirilmiş yaşayış yerləri müdafiə baxımından əlverişli olmadığından təbii cəhətdən müdafiə olunan yüksək dağlıq zonalarda qalalar salınıb. Naxçıvanda Çalxanqala, Vayxır qalası və Qazançıqala belə abidələrdəndir.

Sonda mövzu ilə bağlı tələbələrin sualları cavablandırılıb.

*Digər bölgələrimiz kimi, “Muxtariyyət ili”ndə Şahbuz rayonunda da quruculuq tədbirlərinin həcmi artıb, coğrafiyası xeyli genişlənib.*

## Nursuda beş quruculuq ünvanı

Ötən həftə rayon mərkəzində 2 yeni obyektin – Şahbuz şəhər 2 nömrəli tam orta məktəbi və şəhər mərkəzi binalarının açılış mərasimləri olub. Hazırda quruculuq tədbirləri daha bir neçə ünvanda davam etdirilir. Belə ünvanlardan biri Nursu kəndidir. Bu yaşayış məntəqəsində kənd məktəbinin binası yenidən qurulan obyektlər sırasındadır. İki mərtəbədən ibarət olan məktəb binası 234 şagird yerlikdir. Məktəbə 1 əlavə korpus artırılıb. Buraya kifayət qədər texnika və işçi qüvvəsi cəlb edilib. Bu isə inşaat işlərinin sürətlə və keyfiyyətlə aparılmasına imkan verib. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin bir qrup inşaatçısı öhdəsinə götürdüyü quruculuq tədbirini vaxtında başa çatdırmaq üçün səyini əsirgəmir.

Digər bir obyekt kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. Adıçəkilən idarənin inşaatçıları qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada bir çox işləri başa çatdırıblar. Mərkəzdə icra nümayəndəliyi, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub, kitabxana, polis sahə və baytarlıq məntəqələri fəaliyyət göstərəcək. Həmçinin mərkəzdə rabitə evi də yerləşəcəkdir.

Daha bir quruculuq tədbiri kənddə inşa olunan həkim ambulatoriyasıdır. Bu bina da 2 mərtəbədən ibarətdir. Tibb ocağında yaradılacaq şərait kənd adamlarına səhiyyə xidmətinin lazımi səviyyədə qurulmasına imkan verəcək.

Kənd sakinləri kənddə inşa olunan xidmət mərkəzini onlara göstərilən növbəti dövlət qayğısı kimi dəyərləndirirlər. Xidmət mərkəzində mağazalar, ət satışı dükanı, bərbər və gözəllik salonu fəaliyyət göstərəcək. Hazırda obyektdə son tamamlama işləri aparılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsinin inşaatçıları isə Xalq şairi Məmməd Arazın ev-muzeyinin inşası ilə məşğuldurlar.

Ucqar bir dağ kəndində kompleks quruculuq tədbirlərinin aparılması insanların qurub-yaratmaq əzminə müsbət təsirini göstərib.

**Xəbərlər şöbəsi**

## Hüquq olimpiadasına start verilib

***Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, habelə ümumtəhsil məktəblərinin şagirdləri arasında hüquq olimpiadasına dünən start verilib.***



İki turda nəzərdə tutulmuş olimpiadada iştirak etmək üçün muxtar respublikanın 3 ali, 3 orta ixtisas təhsili müəssisələrindən, o cümlədən Naxçıvan şəhəri də daxil olmaqla muxtar respublikanın 7 rayonu üzrə 176 tam orta ümumtəhsil məktəbindən, ümumilikdə, 981 tələbə və şagird qeydiyyata alınıb.

Olimpiadanın ilk turu noyabrın 5-də Naxçıvan şəhəri üzrə 12 nömrəli tam orta məktəbdə, həmçinin bütün rayon mərkəzlərində keçirilib. Olimpiadada Naxçıvan şəhəri və muxtar respublikanın 7 rayonunun 176 məktəbinin 677 X-XI sinif şagirdi iştirak edib. Test üsulu ilə keçirilən birinci turda məktəblilər Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası konstitusiyalarına, muxtariyyətin tarixi və hüquqi əsaslarına dair 60 sual üzrə biliklərini sınayıblar.

Qeyd edək ki, noyabrın 8-də analoji olimpiada muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin II-III kurs tələbələri arasında keçiriləcək. Onlar da birinci mərhələdə 60 suala cavab verəcəklər.

Olimpiadanın nəticələri dövlət qurumları və elm, təhsil müəssisələrinin nümayəndələrindən ibarət yaradılan münsiflər heyəti tərəfindən yoxlanılacaq. Olimpiadanın II (yekun) turunda ən yüksək bal toplayan tələbə və şagirdlər qalib elan ediləcəklər.

## Cəmiyyət üçün yararlı vətəndaşlar sağlam ailədə yetişir

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Səhiyyə Nazirliyinin və Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə Culfa rayonunun Ərəzin kəndində “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları” mövzusunda tədbir keçirilib.

Tədbiri Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Qasımov açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu” mövzusunda çıxış edərək bildirib ki, muxtar respublikada qadınlar və gənc ailələr arasında reproduktiv sağlamlıq və ailə planlaşdırılması, eləcə də qadınların ailədə üzərinə düşən vəzifələrin düzgün yerinə yetirilməsi məqsədilə maarifləndirmə işinin daha geniş surətdə aparılması və qadınların sağlamlığının mühafizəsi sahəsində tibbi xidmətin keyfiyyət və səmərəliliyinin yüksəldilməsi diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, ana və uşaq ölümü hallarının qarşısının alınmasında müsbət göstəriciyə nail olunub. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi dövlətin bu sahəyə dəstəyinin da

Komitə sədrinin sözlərinə görə, ailə öz mahiyyətini və funksiyasını o zaman bütövlükdə yerinə yetirmiş olur ki, hər bir ailə üzvü üzərinə düşən vəzifələrin məsuliyyətini dərk etsin. Bu mənada qadın böyük rola malikdir. Ailə dəyərlərini qoruyub saxlayan, nəsildən nəslə ötürən qadındır. O, övladının maddi ehtiyaclarını təmin etməklə yanaşı, onu aydın düşüncəyə, saf əqidəyə və ədəb-ərkana yiyələndirməli, bu yolla onun gələcəyini qurmalıdır. Bu, cəmiyyətin gələcəyini qurmaq deməkdir.

Sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədr müavini Arif Ağayev “Qadın hüquqları”, Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva “Keser əməliyyatı, onun ana və uşağa mənfi təsiri” mövzularında çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq barədə slayd vasitəsilə tədbir iştirakçılarına məlumatlar veriblər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

# Naxçıvan Beynəlxalq Hava Limanında xidmət nümunəvi təşkil olunmuşdur



***Azərbaycanın əsas ərazisindən təcrid olunmuş Naxçıvan Muxtar Respublikasının nəqliyyat sistemində hava yollarının əhəmiyyəti olduqca böyükdür. Buna görə də Naxçıvan Beynəlxalq Hava Limanının fəaliyyəti üçün bütün tədbirlər görülmüş, maddi-texniki baza gücləndirilmiş, sərnişinlərin rahat və təhlükəsiz uçuşu təmin olunmuşdur.***

2014-cü ilin oktyabr ayı ərzində də hava limanında əhaliyə keyfiyyətli xidmət təşkil olunmuşdur. Ötən ay ərzində yerli hava xətti ilə 24 min 395 sərnişin, 396 min 265 kiloqram baqaj, 36 min 823 kiloqram yük və 2 min 332 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətti ilə Naxçıvan-Moskva istiqaməti üzrə 339 sərnişin, 5 min 887 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 478 sərnişin və 5 min 567 kiloqram baqaj daşınmışdır.

Hava nəqliyyatına tələbatın artması xidmətin keyfiyyətinin də mütəmadi olaraq yüksəldilməsini şərtləndirir. Buna görə də hava limanı əməkdaşlarının peşəkarlığının artırılması istiqamətində də işlər davam etdirilmişdir. Ötən ay daşımaların təşkili və koordinasiyası xidmətinin şəxsi heyəti Bakı şəhərində Milli Aviasiya Akademiyasında kurslara cəlb edilmişdir.

Payız-qış mövsümündə hərəkətin təhlükəsizliyinin təmin olunması məqsədilə bütün zəruri tədbirlər yerinə yetirilmiş, hava gəmiləri və texniki avadanlıqlar texniki baxışdan keçirilmiş, uçuş-enmə zolağı, sükanlanma yolu və perronda cari təmir işləri aparılmışdır. Uçuş-enmə zolağında betonların arasında olan dərzlər yenisi ilə əvəz olunmuşdur. Açıq və örtülü drenaj xətləri yoxlanılmış, işlərin təhlükəsiz yerinə yetirilməsi üçün texniki işçilərlə məşğələ keçilmiş, aerodrom qış mövsümünə hazır vəziyyətə gətirilmişdir. Hava gəmilərinə xidmət edən xüsusi maşın və texnikalara mövsümi və reqlamentləşdirilmiş texniki xidmət göstərilmişdir. Həmçinin bu dövrdə teleskopik trapların quraşdırılması işi tamamlanmış, onların dayanacaq yerləri təşkil olunmuş və markalanmış, xidməti işçilər üçün yeni bina istifadəyə verilmişdir. Hazırda aerovağzal binasında əsaslı təmir işləri davam etdirilir.

Uçuşların elektrik-işıq texnikası təminatı, istilik və sanitariya texnikası ilə təchizat xidmətləri də 2014-2015-ci ilin payız-qış mövsümünə tam hazırdır. Bu məqsədlə bütün növ güc transformatorları və elektrik paylayıcıları texniki nəzarətdən keçirilmiş, güc kabellərinin sazlığı yoxlanılmış, requlyatorlar üzərindəki 60 akkumulyator batareyaları yenisi ilə əvəz edilmişdir. Hava limanı ərazisində olan bütün işıqlandırma vasitələrinə texniki xidmət göstərilmiş, onların işədüşmə və sönmə vaxtları gün rejiminə uyğun olaraq qurulmuşdur. Oktyabr ayı ərzində təhlükəsizlik sisteminin gücləndirilməsi istiqamətində də bir sıra işlər görülmüşdür. Aerodrom ərazisini və xidmət sahələrini daim nəzarətdə saxlamaq üçün əlavə olaraq 10 ədəd müşahidə kamerası quraşdırılmışdır. Yeni qurulmuş avtomat telefon stansiyasına 800 metr uzunluğunda fiber-optik kabel çəkilərək mərkəzləşmiş şəbəkəyə qoşulmuşdur.

Yanacaq-sürtgü materialları təminatı da lazımi səviyyədə yerinə yetirilmiş, yanacaqdolduran maşınlar yoxlamadan keçirilmişdir. Çənlərdə olan bütün vintillərə nəzarət olunmuş, təmirə ehtiyacı olanlara texniki qulluq göstərilmişdir. Oktyabr ayı ərzində “AZALOİL” Yanacaq-Sürtgü Materialları İdarəsindən 204 min litr təyyarə yanacağı, 1800 litr dizel yanacağı daşınaraq yanacaq-sürtgü materialları anbarına tədarük olunmuşdur. Hazırda “MAN” markalı 2 yanacaqdaşıyan avtomaşın təyyarə yanacağı daşıyır. Bundan başqa, hava gəmilərinin buzlaşmasının qarşısının alınmasında mühüm vasitə olan 8 min 800 litr “Kilfrost DF Plus” və 34 min 900 litr “Kilfrost ABC k Plus” tipli maye tədarük olunmuşdur. Mayelərin keyfiyyət göstəriciləri xüsusi təminat laboratoriyasında analizdən keçirilmiş, istifadə üçün tam yararlı olduğu təsdiq olunmuşdur.

Yeni texnikaların alınıb gətirilməsi də işin keyfiyyətinin artırılmasına xidmət edir. Odur ki, bu istiqamətdə işlər davam etdirilir. Yeni alınmış “MAN TGS-18.360” və “VOLVO FM TRUCK” yəhərli dartıcı “TJS630” markalı qartəmizləyici ilə təchiz olunmuş, “SUPRA-5001” markalı frezer-rotor qartəmizləyən avtomobil hazır vəziyyətə gətirilmişdir. Əlavə olaraq, yeni alınmış üçüncü yanacaqdaşıyan “MAN TGX18-400” yəhərli dartıcı avtomobil noyabr ayından işə salınmışdır.



***Ümumiyyətlə, oktyabr ayı ərzində mövsümə uyğun görüləcək işlər yekunlaşdırılmışdır. Naxçıvan Beynəlxalq Hava Limanının işçi heyəti bundan sonra da qarşıda duran vəzifələrin icrasını lazımi səviyyədə yerinə yetirəcək, əhaliyə nümunəvi xidmət göstərəcəkdir.***

***Naxçıvan Beynəlxalq Hava Limanı***

# Muxtar respublikanın dəmir yolu nəqliyyatı fəaliyyətini ahəngdar qurmuşdur

**Muxtar respublikada dəmir yolu nəqliyyatı infrastrukturunun müasirləşdirilməsi yük və sərnişin daşımalarının həcminin artmasına, xidmətin günün tələblərinə uyğun təşkilinə şərait yaratmışdır. “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti və onun strukturları bu ilin oktyabr ayı ərzində də qarşıda duran vəzifələrin icrasını layiqincə yerinə yetirmiş, xidmətin keyfiyyətinin daha da yüksəldilməsini diqqət mərkəzində saxlamışdır.**

Təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə olması, qatarların və dəmir yolu xətlərinin müasir tələblərə cavab verməsi nəqliyyatın bu növündən istifadə edənlərin sayının artmasına səbəb olmuşdur. Ötən ay ərzində dəmir yolu nəqliyyatı vasitəsilə müxtəlif istiqamətlər üzrə 11 min 25 nəfər sərnişin daşınmışdır.

Quruculuq tədbirlərinin geniş vüsət aldığı muxtar respublikada obyektlərin lazımi tikinti materialları ilə təmin olunmasında dəmir yolu nəqliyyatının imkanlarından da səmərəli istifadə olunur. Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən cari ilin oktyabr ayında muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 3 min 440 ton müxtəlif tikinti materialı daşınmışdır.

Oktyabr ayı ərzində yolların və nəqliyyat vasitələrinin sazlığı nəzarətdə saxlanılmışdır. Bu dövr ərzində elektrovozlar 3, teplovozlar isə 2 dəfə texniki baxışdan keçirilmiş, elektrovozlarda cari təmir işləri aparılmışdır. Culfa Vaqon Deposunda oktyabr ayında 6 sərnişin və 4 platforma vaqonu cari, 1 sərnişin vaqonu isə depo təmiri edilmişdir. Oktyabr ayında İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına mütəmadi baxış keçirilmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün süni tikililər, küvetlər və yol yataqları təmizlənmişdir. Defektoskop briqadası tərəfindən 85 kilometr baş yol, 13 kilometr stansiya yolları, 32 dəst yoldəyişdirici qurğu və 3 min 840 qaynaq calağı yoxlanılmışdır. Relslərdə təhlükəsiz hərəkətin təmin olunması məqsədilə 323 mis rels birləşdiricisi qaynaq edilmiş, yararsız ağac şpalları yeniləri ilə əvəzlənmişdir. Rabitə və işarəvermə sahəsi üzrə stansiyalarda da qatarların hərəkətinin təhlükəsizliyi təmin edilmişdir. Oktyabr ayında bu məqsədlə 32 müxtəliftipli rele dəyişdirilmiş, Naxçıvan-Şərur sahəsində radiorabitə əlaqəsi texniki normaya uyğun tənzimlənmişdir.

Sərnişinlərin payız-qış mövsümündə rahat gediş-gəlişini təmin etmək üçün istilik sistemlərinin sazlığı yoxlanılmış, vaqonlar mövsümə tam hazır vəziyyətə gətirilmişdir. Hazırda 1 sərnişin vaqonunda istilik sisteminin bərpa olunması məqsədilə əsaslı təmir işləri davam etdirilir. Həmçinin ötən ay qış mövsümündə sərnişin vaqonlarının normal qızdırılması üçün əlavə olaraq 40 ton daş kömür tədarük edilmişdir.

Enerji sahəsi üzrə Culfa-Ordubad yan xəttində, Culfa-Vəlidağ və Nehrəm-Dərəşam sahələrindəki kontakt şəbəkə xətlərində yararsız vəziyyətdə olan izolyator və traverslər dəyişdirilmiş, 16 kontakt şəbəkəsi dayaqlarının fərdi torpaqlanması bərpa edilmiş, yük kompensatorunda cari təmir işləri aparılmışdır. Culfa yanğın qatarında xüsusi və çən vaqonlarında təmir işləri aparılmış, yanğın texnikası müayinədən keçirilərək qışa tam hazır vəziyyətə gətirilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının iştirakı ilə sərnişin vağzalı, inzibati binalar və təmir sexlərində quraşdırılmış qazanxana və qızdırıcılarda texniki təhlükəsizliyin vəziyyəti yoxlanılmış və aşkarlanan çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən oktyabr ayında Ordubad Stansiyası İdarəetmə Mərkəzində əsaslı təmir işləri aparılmış, Ordubad Yol Sahəsinin inzibati binasının və Ordubad dəmir yolu sərnişin vağzalı binasının tikintisi davam etdirilmişdir. İnfrastruktur İdarəsinin inzibati binasında isə son tamamlama işləri aparılır.

*“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən hərəkətin təhlükəsizliyinin təmin olunması və əhaliyə keyfiyyətli xidmətin göstərilməsi istiqamətində işlər davam etdiriləcəkdir.*

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti***

*Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı təmin olunub, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsinə dövlət maliyyə dəstəyi göstərilib, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılıb, yeni istehsal və xidmət sahələri, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələri yaradılıb.*

# Yeni istehsal sahələri fəaliyyətə başlayıb

Aparılan uğurlu islahatlar nəticəsində sənaye məhsulunun həcmi ilbəil artıb, muxtar respublikada istehsal olunan sənaye məhsulunun 93,2 faizi özəl sektorun payına düşüb.

Son illər yaradılan müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Dekor Qrup” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisənin direktoru Ələddin Allahverdiyev bildirdi ki, özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında müəssisə üçün 15 min kvadratmetr torpaq sahəsi ayrılıb. 2013-cü ilin may ayından inşaat işlərinə başlanılıb, əraziyə elektrik, qaz, su və kanalizasiya xətləri çəkilib.

İnşaat işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün müəssisəyə təcrübəli mütəxəssislər cəlb olunub, 3 istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, ayrı-ayrı iş otaqları və sərgi-satış salonu olan inzibati bina, iaşə xidməti göstərilməsi üçün yeməkxana istifadəyə verilib.

Layihəyə uyğun olaraq, laminat-mətbəx dəzgahı, PVC akrilik parlaq panellər və melamin örtüklü plitələr istehsal olunması nəzərdə tutulan müəssisədə artıq laminat-mətbəx dəzgahı və PVC akrilik parlaq panellər istehsalı sahələrində İtaliyanın “Omma” və “Osoma”, Almaniyanın “IDM”, Türkiyənin “AS Metal” və “Türk makina” şirkətlərinin istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi avtomatlaşdırılıb. Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə istehsal prosesi konveyer üsulu ilə təşkil olunub, keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılıb. Həmçinin müəssisədə havalandırma sistemi qurulub, istehsal prosesi zamanı yaranan tozun və tullantıların kompressorlar vasitəsilə sexdən kənarlaşdırılması və xüsusi bunkerlərə yığılması təmin edilib.

Hər birinin istehsal gücü gündə 10 min ədəd mebel materialları olan yeni istehsal sahələrində xammal ayrı-ayrı mərhələlərdən keçməklə rəng olaraq 100 çeşiddən çox məhsul istehsal edilir. Əvvəllər ölkəmizdə, o cümlədən muxtar respublikamızda fəaliyyət göstərən mebel istehsalı müəssisələrinə hazır materiallar xarici ölkələrdən idxal olunub əlavə daşınma xərci çəkilirdisə, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb, istehsal müəssisələri vaxtında və keyfiyyətli mebel materialları ilə təmin olunub.

Yeni istehsal müəssisəsinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Hazırda müəssisədə 60 nəfər çalışır. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılır, müəssisədə çalışan işçilərin Türkiyə Respublikasında ixtisasartırma kurslarında iştirakı təmin olunur. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

Gələcəkdə müəssisədə yeni istehsal sahəsinin – melamin örtüklü plitələr istehsalı sahəsinin istifadəyə verilməsi nəzərdə tutulur ki, buraya da mebel avadanlıqları istehsalında qabaqcıl təcrübəyə malik, dünyada məşhur olan Almaniyanın “Wemhoner” şirkətinin avadanlıqları alınıb gətiriləcək və idxal olunan dəzgahlar həmin şirkətin mütəxəssisləri tərəfindən quraşdırılacaqdır. Melamin örtüklü plitələr istehsalı sahəsi istifadəyə veriləndən və müəssisə tam gücü ilə işləyəndən sonra, ümumilikdə, 110 nəfər daimi işlə təmin ediləcək.

Mebel materialları istehsal edilən bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. Yeni müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, ölkəmizin digər regionlarında da satışa çıxarılır, gələcəkdə xarici ölkələrə ixrac olunması nəzərdə tutulur.

**Kərəm HƏSƏNOV**

# Naxçıvan: Azərbaycanın qədim torpağı barədə bir neçə qeyd

***Qədim tarixi, zəngin mədəniyyəti, gözəl təbiəti, turizm potensialı, müasir yaşayış məntəqələri və sürətli sosial-iqtisadi inkişaf tempi ilə diqqəti cəlb edən Naxçıvan hər zaman xarici qonaqlarda zəngin təəssürat yaradır. Muxtar respublikada səfərdə olan xarici ölkə vətəndaşlarının – alim, tədqiqatçı və jurnalistlərin müxtəlif kütləvi informasiya vasitələrində Naxçıvan haqqında yazdıqları məqalələrlə çıxış etmələri ənənə halını almışdır. IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı, Amerika Birləşmiş Ştatlarında yaşayan müstəqil jurnalist və tədqiqatçı Peter Tasenin “Foreign Policy News” (Xarici siyasət xəbərləri) portalında muxtar respublikaya həsr etdiyi növbəti məqaləsi yerləşdirilmişdir. Oxucularımız üçün maraqlı olacağını nəzərə alaraq həmin məqaləni qəzetimizin bugünkü nömrəsində dərc edirik.***



Naxçıvan Muxtar Respublikası Kiçik Qafqazın qərb hissəsində, dəniz səviyyəsindən 600-1000 metr yüksəklikdə yerləşir. Naxçıvanın iqlimi, əsasən, kontinental və qurudur: qış fəsli soyuq, yay fəsli isə isti və quru keçir. Azərbaycanın əsas ərazisindən ayrı düşən Naxçıvan şimalından cənub istiqamətinə 246 kilometr Ermənistanla, cənubdan şərq istiqamətinə 204 kilometr İranla və cəmi 11 kilometr məsafədə Türkiyə ilə sərhəddir. İnkişaf dövrünü yaşayan Naxçıvan Muxtar Respublikasının əhalisi 430 min, ərazisi isə 5,5 min kvadratkilometrdir. Əsasən, dəniz səviyyəsindən 1500-2500 metr yüksəklikdə yerləşən Naxçıvanın bəzi ərazilərinin hündürlüyü 3000 metrdən artıqdır. Zəngəzur və Dərələyəz dağ silsilələri Naxçıvanı sərhəd boyu əhatə edir. Zəngəzur silsiləsinin ən yüksək zirvəsi 3904 metr yüksəklikdə yerləşən Qapıcıq dağıdır. Bu, Zaqafqaziyanın qeyri-vulkanik mənşəli ən yüksək dağıdır. Zəngəzur silsiləsinin cənub ətəyini Türkiyə, Ermənistan, Azərbaycan və İran ərazisindən keçən Araz çayı yuyur. Orta hündürlükdə yerləşən Talış dağlarının ən yüksək nöqtəsi sayılan Gömürgöy zirvəsi isə 2477 metrdir. Bu dağların şimal-şərqindəki yamacları Azərbaycan ərazisində yerləşir. Araz çayı Azərbaycan və İran arasında sərhəd olduğu üçün Talış yamacının digər hissəsi İran ərazisində qalır.

Azərbaycan Qara dənizdən Xəzər dənizinə qədər, təqribən, 800 kilometrlik məsafədə uzanan Qafqaz dağlarının cənub-şərq hissəsində yerləşir. Avropa və Asiyanın kəsişdiyi yerdə unikal coğrafi mövqeyi ilə seçilən bu ölkə dünya iqtisadi və mədəni əlaqələrinin inkişafına töhfə verir.

Naxçıvan Heydər Əliyevin anadan olduğu və vaxtilə rəhbərlik etdiyi unikal regiondur. Dünyada bəşəriyyət tarixinə Azərbaycanın bu qədim diyarı qədər töhfələr verən oxşar bir yer tapmaq mümkün deyil. Burada tarixin bütün dövrlərində, xüsusilə XII əsrdə güclü dövlət olmuşdur. “Naxçıvan” sözü “Nuh Cahan” sözündən yaranıb və Nuh Peyğəmbərlə bağlıdır. Arxeoloji qazıntılar zamanı bu ərazidə müqəddəs kitablar olan “Qurani-Kərim”də və “İncil”də də təsvir olunan Dünya tufanının izləri aşkar olunmuşdur.

Azərbaycan ərazisinin yarısı dağlıq relyefdir. Şimal hissəsində Böyük Qafqaz dağları (ən yüksək zirvəsi Bazardüzü 4466 metr), cənub-qərb hissəsində Ermənistan və Gürcüstan istiqamətində uzanan Kiçik Qafqaz dağları, cənubunda isə Talış dağları yerləşir. Qafqaz və Orta Asiya regionuna aid olan coğrafi xüsusiyyətləri özündə yaşadan bu heyrətamiz ərazi rəngarəng və zəngin təbiətə malikdir.

1920-ci ildə bolşeviklər tərəfindən Azərbaycanın Zəngəzur mahalının Ermənistana verilməsi nəticəsində Naxçıvan ərazisi Azərbaycanın əsas hissəsindən ayrı düşmüşdür. Sovet İttifaqı dövründə keçmiş Azərbaycan ərazisi olan Mehri dəhlizindən istifadə etməklə Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə dəmir yolu əlaqəsi olmuşdur. Lakin Sovet İttifaqı dağıldıqdan sonra erməni silahlı qüvvələri Azərbaycan ərazisinə hücum edərək 7 rayonu işğal etmiş və bu işğal nəticəsində muxtar respublika ilə dəmir yolu əlaqəsi kəsilmişdir. 1991-ci ildən bəri Ermənistanın tətbiq etdiyi blokada nəticəsində Naxçıvanın Azərbaycanla heç bir quru nəqliyyat əlaqəsi yoxdur. Azərbaycanın başqa regionlarına getmək üçün yeganə vasitə İran hava sahəsindən keçən təyyarə və ərazisindən keçən avtomobil yoludur. Hər gün Naxçıvandan Bakıya 6, həftədə bir dəfə isə Moskva və İstanbula təyyarə reysləri həyata keçirilir.

## Distant Tədris Mərkəzinin yaradılması muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqlara davamlı qayğının ifadəsidir

***Bu gün muxtar respublikamızda insan amili ön planda dayanır. Bu sırada sağlamlıq imkanları məhdud uşaqlar da davamlı qayğı əhatəsindədirlər. Regionumuzda bu istiqamətdə həyata keçirilən tədbirlər həm onlar, həm də muxtar respublika sakinləri tərəfindən rəğbətlə qarşılanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” bu istiqamətdə atılan növbəti addımdır.***





Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarının təmin olunması məqsədilə qəbul olunan bu proqrama əsasən, cari ildə bir sıra mühüm tədbirlər həyata keçirilib. Ən mühüm tədbirlərdən biri isə bu il oktyabrın 1-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsi oldu.

Əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verməyən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqlar üçün bu mərkəzin əhəmiyyəti böyükdür. Mərkəz həm də uşaqların sosial reabilitasiyasının gücləndirilməsi və onların cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır. Bu sistem müxtəlif məsafələrdə olan təhsil müəssisələri arasında informasiya mübadiləsinin operativ və səmərəli təşkilinə imkan verir. Bu məqsədlə mərkəzdə iki otaq ayrılıb. Otaqların birində mərkəzi server və çevirici avadanlıqlar quraşdırılıb, tədris sinfi intellektual-elektron lövhə, kompüter, smart kamera, monitor və digər texniki avadanlıqlarla təchiz olunub. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən distant təhsilə 4 müəllim cəlb olunub. Həmin müəllimlərə, eləcə də sağlamlıq imkanları məhdud uşaqların valideynlərinə sistemdən istifadə qaydalarının öyrədilməsi məqsədilə kurs keçilib. Bu da öz bəhrələrini verib. Bunu biz də müşahidə etdik.

Mərkəzdə olarkən qrafik əsasında müəllimlərdən Çinarə Hacıyevanın dərsini izlədik. Şagirdlərdən Qönçə Abdullayeva videobağlantı vasitəsilə keçilən dərsi dinləyir və müəllimlə birbaşa əlaqə saxlayırdı. Dərsdən sonra Çinarə müəllimə ilə həmsöhbət olduq. Bildirdi ki, bu gün tam orta məktəblərdə keçilən dərslərdə qazanılan biliklərə sağlamlıq imkanları məhdud olan uşaqlar burada yiyələnirlər. Otaqlarda quraşdırılan müasir tədris avadanlıqları şagirdlərimizin kompüter və digər elektron avadanlıqlardan istifadə bacarıqlarının artmasına şərait yaradıb. Bu da onların biliklərinin artmasına, intellektual səviyyələrinin yüksəlməsinə xidmət edir.

Tədris prosesini evlərdə də izlədik. Şagirdlərdən Aydın Cəfərov böyük həvəslə artıq bir neçə hərfi öyrənib. Hiss etmək çətin deyildi ki, o, buna çox sevinir.

Yaradılan şərait isə Aydının öz həmyaşıdları kimi mükəmməl təhsil alacağına imkan verib.

Yazını hazırlayarkən övladları bu mərkəzdən istifadə edən bir neçə valideynlə də telefon əlaqəsi saxladıq. Culfa rayonundan valideyn Xatirə Quliyeva dedi:

– Hər bir valideyn istəyir ki, övladı təhsil alsın. Oğlum Uğur keçirdiyi əməliyyatdan sonra həkim ona ancaq sakit vəziyyətdə dərs keçilməsini məsləhət gördü. Belə şərait yarada bilmədik. Bu mərkəzin yaradılmasını eşidəndə çox sevindik. Artıq övladım dərs oxuyur. Bu mənzərini gördükcə ürəyim dağa dönür. Belə şəraiti təsəvvürümə belə gətirməzdim. İndi düşünürəm ki, diyarımızda heç kəs qayğıdan kənarda qalmayıb.

Kəngərli rayonunun Xok kəndindən olan valideyn Ulduz Cəfərova isə belə deyir:

– Ailəlikcə o qədər sevincliyik ki, bunu sözlə ifadə edə bilmirəm. Bizim də ümidlərimiz gerçəkləşir, arzularımız çin olur: bilirsiniz, artıq mənim də övladım dərs oxuyur. Bunun üçün muxtar respublika rəhbərinə dərindən minnətdarıq.

Onu da bildirək ki, hazırda muxtar respublika üzrə 18 sağlamlıq imkanları məhdud uşaq, o cümlədən Naxçıvan şəhərindən 1, Şərur rayonundan 3, Babək rayonundan 8, Culfa rayonundan 2, Kəngərli rayonundan 3, Şahbuz rayonundan 1 uşaq distant təhsilə cəlb edilib. Bu uşaqların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və vebkameralar quraşdırılıb. Distant Tədris Mərkəzinə eyni vaxtda 50 istifadəçinin qoşulması mümkündür. Gələcəkdə serverin tutumunun 200 istifadəçiyədək artırılması nəzərdə tutulub. Bu isə bir o qədər sağlamlıq imkanları məhdud uşağın videobağlantı vasitəsilə məsafədən tədris prosesinə qoşulmasına imkan verəcəkdir.

*Bəli, insan amilinə davamlı qayğı bu gün muxtar respublikada prioritet vəzifəyə çevrilib. Bu isə region sakinlərini ürəkdən sevindirir. Həyata keçirilən tədbirlər sabahımıza cavabdehlik hissinin ifadəsi kimi dəyərləndirilir.*

**Sara ƏZİMOVA**

*Naxçıvan Müəllimlər İnstitutunda görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi münasibətilə “Azərbaycanın məktəb tarixində Məhəmməd Tağı Sidqinin rolu” mövzusunda elmi-praktik konfrans keçirilib.*

## Görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi ilə bağlı elmi-praktik konfrans keçirilib





Əvvəlcə institutun müəllim və tələbə kollektivi Heydər Əliyev adına tam orta məktəbin kollektivi ilə birgə görkəmli pedaqoqun Naxçıvan şəhərindəki məzarını ziyarət ediblər.

Naxçıvan Müəllimlər İnstitutunun akt zalında davam etdirilən tədbiri ali təhsil ocağının rektoru, professor Oruc Həsənli açaraq ədibin həyat və yaradıcılığından danışıb.

Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalov “Məhəmməd Tağı Sidqi yaradıcılığında mənəvi tərbiyə məsələləri” mövzusunda çıxış edərək bildirib ki, tanınmış maarifçi Məhəmməd Tağı Sidqi bütün həyatını maarifçiliyə və bədii yaradıcılığa həsr edib. Görkəmli pedaqoq Naxçıvanda ilk milli məktəblərdən olan “Məktəbi-tərbiyə”ni təsis etməklə bərabər, ədəbi yaradıcılıqla da məşğul olub, Azərbaycan uşaq ədəbiyyatının və poeziyasının inkişafında mühüm xidmətlər göstərib. Maarifçi-realist ədəbiyyatın yaradıcılarından biri kimi ədəbiyyat tariximizdə öz yeri olan ədibin yaradıcılığında mənəvi tərbiyə məsələləri mühüm yer tutub. “Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır”, – deyən Sidqi bir bağban həssaslığı ilə yetişdirdiyi şagirdlərini həm maddi, həm də mənəvi cəhətdən gələcəyə hazırlayırdı. Xüsusilə mövhumatçılığın baş alıb getdiyi bir dövrdə Məhəmməd Tağı Sidqi qız uşaqlarının təhsil almaları uğrunda böyük mübarizə aparır və bu barədə arzu və istəklərini qorxmadan qələmə alırdı. Onun elmə, biliyə çağırış motivli əsərləri insanların mənəvi tərbiyəsinin inkişafında da böyük təsir edirdi. Böyük ədib mənəvi tərbiyənin yalnız elmlə, məktəblə, oxumaqla əldə edildiyinə diqqət çəkərək ata-anaların övladlarını oxutdurmalarını təqdir edirdi. O deyirdi: “Ağıllı ata-ana övladını elmə və tərbiyətə rağib edəndir. Balasını bikar və əziz saxlayan adam övladının düşmənidir”.

Qeyd olunub ki, böyük maarifçi-ədibin elmə, biliyə, ümumiyyətlə isə mənəvi zənginliyə səsləyən əsərləri müasir dövrdə də aktualdır.

“Məhəmməd Tağı Sidqinin ədəbi irsi” mövzusunda çıxış edən Heydər Əliyev adına tam orta məktəbin müəllimi Gülşən Fətullayeva bildirib ki, qədim Naxçıvan torpağının yetirməsi olan Məhəmməd Tağı Sidqi maarifçi-realist ədəbiyyatın yaradıcılarından biri kimi ədəbiyyat tariximizdə böyük rol oynayıb. Görkəmli ədib Azərbaycan maarifçi-realist ədəbiyyatının inkişafına ciddi töhfələr verərək onun ideya-bədii təkamülündə hərtərəfli xidmətləri ilə şöhrətlənib. Onun ədəbi irsində ədəbiyyatın mövzu, ideya və sənətkarlıq baxımından yeniləşməsi, xalqı, cəmiyyəti düşündürən taleyüklü məsələlərə diqqət yetirməsi, inkişafa mane olan köhnə buxovlardan xilas olub müasir inkişaf yoluna qədəm qoymasının vacibliyi daim diqqət mərkəzində saxlanılıb.

Vurğulanıb ki, M.T.Sidqinin ədəbi irsində ana dilinin saflığı, sadələşməsi ideyası mühüm yer tutur. Maarifçi-ədib qələm sahiblərini doğma dilin saflığı və təmizliyini qorumağa, sadə tərzdə əsərlər yazmağa səsləyirdi. Qeyd olunub ki, pedaqoji elmin inkişafına verdiyi töhfələrlə yanaşı, Məhəmməd Tağı Sidqi Azərbaycan ədəbi irsinin yeniləşməsi istiqamətində də mühüm xidmətlər göstərib.

Sonra çıxışlar olub.

Elmi-praktik konfransa Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli yekun vurub.

**Səbuhi HƏSƏNOV**

# Seçki marafonu

## Bələdiyyə seçkiləri – 2014

**23 dekabr 2014-cü il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Hörmətli seçicilər!**

Azərbaycan Respublikasında bələdiyyə seçkilərində siyasi partiya və siyasi partiyaların blokları tərəfindən bələdiyyə üzvlüyünə namizəd və ya namizədlərin irəli sürülməsi qaydası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54-cü, 212-ci və 214-cü maddələri ilə tənzimlənir.

**Siyasi partiya öz nizamnaməsinə uyğun olaraq, namizədin və ya namizədlərin irəli sürülməsi haqqında qərarı səsvermə yolu ilə kollegial qaydada qəbul edir.**

Siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizəd və ya namizədlər bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilir. Siyasi partiyaların blokları tərəfindən namizəd və ya namizədlərin irəli sürülməsi haqqında qərar siyasi partiyaların nümayəndələrinin iclasında (qurultayında, konfransında, rəhbər orqanının iclasında) qəbul edilir. Siyasi partiyaların bu səlahiyyətli nümayəndələri partiyaların qurultayında (konfransında, rəhbər orqanının iclasında) müəyyənləşdirilir.

Namizəd və ya namizədlərin irəli sürülməsi barədə siyasi partiyanın, siyasi partiyalar blokunun qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar göstərilir:

*a) iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı;*

*b) siyasi partiyalar blokunun yaradılması haqqında sazişdə nəzərdə tutulan qərarın qəbul edilməsi üçün lazım olan iştirakçıların sayı;*

*c) namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri;*

*ç) qərarın qəbul edilməsi tarixi.*

***Siyasi partiyalar tərəfindən bələdiyyə üzvlüyünə namizəd və ya namizədlər irəli sürülərkən siyasi partiyanın səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasına namizədin adı ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:***

- siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surəti;

- siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;

- namizəd və ya namizədlərin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı və müvafiq iclasın protokolu;

- hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş. Bu bildirişin surəti dairə seçki komissiyası tərəfindən təsdiq edilərək müvafiq səlahiyyətli nümayəndəyə verilir;

- bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş hər bir şəxsin məhkumluğuna, vətəndaşlığına dair və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması barədə məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi;

**Siyasi partiya, siyasi partiyaların bloku bloka daxil olan partiyaların üzvü olmayan şəxsləri namizəd kimi irəli sürə bilərlər.**

- səlahiyyətli nümayəndələrin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin təyin edilməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanı iclasının) qərarı;

- siyasi partiyanın səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnamələri;

- siyasi partiyaların səlahiyyətli nümayəndələrinin siyahısı.

Siyasi partiyaların səlahiyyətli orqanı səlahiyyətli nümayəndənin səlahiyyətinə xitam verdiyi halda bu barədə qərarın surəti Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyasına təqdim edilməlidir. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış siyasi partiyanın səlahiyyətli nümayəndəsinə verilir.

***Siyasi partiyalar bloku tərəfindən namizəd və ya namizədlər irəli sürülərkən siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasına namizədin adı ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:***

- siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanının iclasının) namizəd və ya namizədləri irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları;

- siyasi partiyaların blokuna daxil olan siyasi partiya nümayəndələri iclasının (qurultaylarının, konfranslarının) siyasi partiyaların bloku adından namizəd və ya namizədlərin irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu;

- siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnamələri;

- siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin siyahıları;

- bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin məhkumluğuna, vətəndaşlığına dair və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması barədə məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi;

- hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş. Bu bildirişin surəti dairə seçki komissiyası tərəfindən təsdiq edilərək müvafiq səlahiyyətli nümayəndəyə verilir.

Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə verilir.

***Siyasi partiyalar tərəfindən Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədlər təqdim edilməlidir:***

- siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin siyahıları;

- siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin razılıq məktubları (Mərkəzi Seçki Komissiyasında qeydə alındıqları zaman, habelə qeydə alındıqdan sonra səlahiyyətli nümayəndə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilibsə, siyasi partiyalar bloku da müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim etməlidir).

**Bələdiyyə üzvlüyünə namizədlər gəlirlərinin miqdarı, məbləği və mülkiyyət hüququ əsasında onlara məxsus olan əmlak haqqında məlumat verirlər.**

***Bələdiyyə üzvlüyünə namizədə, namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi qaydaları.***

Namizədin müdafiəsi məqsədilə seçici imzalarının toplanması üçün imza vərəqələrinin verilməsi dairə seçki komissiyası tərəfindən namizədə və ya səlahiyyətli nümayəndəyə bələdiyyə üzvlüyünə namizədin irəli sürülməsini təsdiq edən qərarın təqdim edildiyi gündən başlanır.

İmza vərəqələri namizədə və ya səlahiyyətli nümayəndəyə verilərkən hər bir imza vərəqəsinin yuxarı sağ küncü dairə seçki komissiyasının möhürü ilə möhürlənməlidir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi nümunəyə uyğun olaraq, namizədə və ya səlahiyyətli nümayəndəyə imza vərəqələri verilməsi barədə 2 nüsxədən ibarət akt tərtib edilməlidir. Tərtib olunmuş akt dairə seçki komissiyasının sədri, namizəd və ya səlahiyyətli nümayəndə tərəfindən imzalandıqdan sonra komissiyanın möhürü ilə təsdiqlənir.

İmza vərəqələrini qəbul etməsi haqqında aktda namizədin və ya səlahiyyətli nümayəndənin, həmçinin dairə seçki komissiyası sədrinin soyadı, adı, atasının adı, verilən imza vərəqələrinin növü və sayı göstərilməlidir.

Tərtib edilmiş akt imzalanaraq möhürləndikdən sonra onun bir nüsxəsi dairə seçki komissiyasında qalır, digər nüsxəsi isə imza vərəqələri ilə birlikdə namizədə və ya səlahiyyətli nümayəndəyə təqdim edilir.

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası**

## Ordubadda bir gündə 7 cərrahi əməliyyat aparılıb

*Son illərin quruculuq ünvanlarından biri olan, orijinal memarlıq üslubunda qurulmuş 5 mərtəbəli Ordubad Rayon Mərkəzi Xəstəxanasında xəstələrin müalicə və müayinəsi üçün hər cür şərait yaradılıb, LOR, oftalmoloq, cərrah, nevropatoloq və terapevt otaqları, stasionar və mobil rentgen qurğuları, flüoqraf, ultrasəslə müayinə və elektrokardioqrafiya aparatları quraşdırılıb.*

Reanimasiya və əməliyyat bölməsində yerləşən palatalarda süni tənəffüs aparatlarının, defibliyatorun, çarpayıyanı monitorların və ilk yardım ləvazimatlarının olması səhiyyə ocağında ağır xəstələrin müalicəsinə imkan verir. Əməliyyat otağı narkoz aparatı, sorucu, kiçik və böyük cərrahi avadanlıqlar dəsti ilə təchiz edilib. Əməliyyat və doğuş otaqlarında antibakterial havalandırma sistemi quraşdırılıb. Yaradılmış şərait digər rayonlarda olduğu kimi, Ordubad Rayon Mərkəzi Xəstəxanasında da yüksəkixtisaslı həkim briqadalarının fəaliyyətinə stimul verib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, yüksəkixtisaslı cərrah həkimlər rayon xəstəxanasında olub, bir gündə 7 xəstə üzərində 5 tonzilloektamiya, dəbəllik və dermoid kistaya görə cərrahi əməliyyatlar aparıblar. Bu əməliyyatlar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçi-cərrahı, tibb üzrə fəlsəfə doktoru Sabir Novruzov, Naxçıvan Muxtar Respublika Xəstəxanası Burun-qulaq-boğaz şöbəsinin müdiri Fərman Novruzov, reanimatoloq-anestezioloq Hüseyn Abdullayev tərəfindən həyata keçirilib. Cərrahi müdaxilələrdə Ordubad Rayon Mərkəzi Xəstəxanasının cərrahı İlqar İbrahimov da iştirak edib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## "Nuh yurdu" intellektual oyunu keçirilib

Noyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Naxçıvan Şəhər Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunmuş yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyunu keçirilib.

"Nuh yurdu" intellektual oyununun keçirilməsində məqsəd yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

Oyunda 8 komanda iştirak edib. Komandalar arasında gedən gərgin mübarizə nəticəsində "Zirvə" komandası I, "Nuh yurdu" komandası II, "Odlar yurdu" komandası isə III yerləri qazanıblar.

Oyunda qalib gələn komandalar təşkilatçılar tərəfindən diplom və fəxri fərmanlarla təltif olunublar.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin oktyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 214104 | 21410 | 23602 | 110,2 |
| 2. | Sədərək rayonu | 99769 | 9977 | 10069 | 100,9 |
| 3. | Kəngərli rayonu | 254405 | 25441 | 25516 | 100,3 |
| 4. | Culfa rayonu | 601385 | 60139 | 59653 | 99,2 |
| 5. | Ordubad rayonu | 556390 | 55639 | 45646 | 82,0 |
| 6. | Naxçıvan şəhəri | 1947494 | 194749 | 145995 | 75,0 |
| 7. | Şərur rayonu | 933696 | 93370 | 57064 | 61,1 |
| 8. | Babək rayonu | 1060503 | 106050 | 63957 | 60,3 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 4183975 | 418283 | 357522 | 85,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **9851721** | **985058** | **789024** | **80,1** |

## Güləşçilərimizin daha bir uğuru

Ötən həftə Bakı şəhərində Helsinki Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Rəşid Məmmədbəyovun xatirəsinə həsr olunmuş yeniyetmələr arasında sərbəst və yunan-Roma güləşi üzrə açıq respublika turniri keçirilib. Beş gün davam edən turnirdə Naxçıvan güləşçiləri də çıxış ediblər. 8 sərbəst və yunan-Roma güləşçimizin mübarizə apardığı yarışda iki idmançımız uğur qazanıb. Belə ki, sərbəst güləş növünün 54 kiloqram çəki dərəcəsində mübarizə aparan Haldun Məmmədov yalnız finalda məğlub olub və turnirin gümüş mükafatını qazanıb. 46 kiloqram çəki dərəcəsində güləşən Elnur Musayev isə bürünc medal əldə edib.

Sonda mükafatçılara təşkilatçılar tərəfindən diplom, medal və qiymətli hədiyyələr təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Bulut Hikmət Tahir oğlunun adına 2012-ci ildə Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş MNA-026849 seriya nömrəli diplom itdiyindən etibarsız sayılır.

* * *

Hüseynov Tural Əmir oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 927